UOT:33
https://doi.org/10.30546/3006-0346.2025.3.87.612

# TURİZM LOGİSTİKASINDA XARİCİ TƏCRÜBƏ

**GÜNEL İSAYEVA**
*Naxçıvan Dövlət Universtieti*
*"Bələdiyyə və turizm" kafedrasının baş müəllimi,*
*"İqtisadiyyat və marketinq" kafedrasının dissertantı*

*E-mail: gunelisayeva@ndu.edu.az*
*Orcid id: 009-0004-3321-0714*

## Giriş

Müasir dövrdə turizm sektoru yalnız iqtisadi fəaliyyət sahəsi deyil, həm də mədəniyyətlərarası əlaqələrin genişlənməsi və regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Onun davamlı inkişafı isə səmərəli logistik təminatla sıx bağlıdır. Turizm logistikası nəqliyyatın təşkili, marşrutların planlaşdırılması, xidmət infrastrukturu ilə inteqrasiya və turizm resurslarına çıxış imkanlarının optimallaşdırılmasını əhatə edir.

Fərqli ölkələrin bu sahədəki təcrübələri Azərbaycanın regional inkişaf siyasəti, xüsusilə işğaldan azad olunmuş ərazilər və Naxçıvan Muxtar Respublikasında turizmin reinteqrasiyası üçün əhəmiyyətlidir. Uzunmüddətli izolasiya nəticəsində yaranmış infrastruktur boşluqları dayanıqlı turizm axınlarının formalaşmasını çətinləşdirir.

Bu səbəbdən, multimodal nəqliyyat əlaqələrinin inkişafı, xidmət infrastrukturu ilə koordinasiya və sərhəd prosedurlarının sadələşdirilməsi prioritet sayılır. Eyni zamanda, institusional və normativ çərçivələrin təkmilləşdirilməsi bu prosesin effektivliyini artırır.

Logistika turizm sektorunun ayrılmaz hissəsidir və onun keyfiyyəti turizm təcrübəsinin uğuruna birbaşa təsir edir. Turizm logistikası turist axınlarının idarə olunması, marşrutların və xidmətlərin əlaqələndirilməsi, resursların səmərəli istifadəsi və informasiya-kommunikasiya axınlarının təşkili kimi amilləri əhatə edir. Bu, turistlərə rahat və təhlükəsiz səyahət imkanı yaratmaqla yanaşı, xidmət təminatçıları arasında koordinasiyanı da gücləndirir.

Cədvəldən də göründüyü kimi, Yaponiya, Çin və Türkiyənin turizm logistikası sahəsindəki təcrübələri göstərir ki, regional turizmin uğurlu inkişafı səmərəli nəqliyyat infrastrukturu və inteqrasiya olunmuş logistik sistemlərin qurulması ilə sıx bağlıdır. Yaponiya ağıllı nəqliyyat sistemləri və sürətli dəmir yolları vasitəsilə şəhər və kənd turizm məkanları arasında çevik əlaqə təmin edir (9). Mobil tətbiqlər və elektron xidmətlər sayəsində turistlər üçün rahat marşrut planlaşdırılması və informasiya əldə olunması mümkün olur. Bu model Qarabağ və Şərqi Zəngəzur üçün dayanıqlı nəqliyyat və ekoturizm baxımından nümunə ola bilər.

## Beynəlxalq təcrübə və xarici nümunələr

**Turizm logistikasında müxtəlif ölkələrin yanaşmaları (cədvəl müəllif tərəfindən hazırlanmışdır)**

| Ölkə | Logistika modeli | Nəqliyyat infrastrukturunun vəziyyəti | Texnologiyanın rolu | Regional inkişafa təsiri |
|---|---|---|---|---|
| **Yaponiya (Osaka Logistics Hub)** | Regional "smart mobility" və "slow tourism" yanaşması | Sürətli dəmir yolları, yerli hava limanları, kənd yolları | Ağıllı mobillik sistemləri, electron marşrutlar | Regionların bərabər iqtisadi inkişafı |
| **Çin (Yiwu Logistik Mərkəzi)** | İnfrastruktur əsaslı inteqrasiya və dövlət dəstəyi | Geniş dəmir yolu şəbəkəsi, sürətli yollar, daxili uçuşlar | Turizm axınlarının rəqəmsal idarəetməsi, marşrut planlaşdırılması | Aşağı inkişaf etmiş bölgələrin bərpası |
| **Türkiyə (Kayseri Lojistik Köyü)** | Regional və təbii turizmi birləşdirən inteqrasiya olunmuş model | Böyük hava limanları, yüksək sürətli dəmir yolu, təbiət parkları | Dijital turizm xidmətləri, onlayn sifariş sistemləri | Bölgələrarası turizmin təşviqi, infrastruktur layihələri |

Çin geniş turizm bazası və "Bir Kəmər, Bir Yol" təşəbbüsü ilə beynəlxalq əməkdaşlıq imkanları yaradır. Çinli turistlərin mədəni və təbiət yönümlü səfərlərə üstünlük verməsi Azərbaycanın Gəncə, Naxçıvan və azad olunmuş əraziləri üçün əlavə potensial yaradır (6). Bu istiqamətdə yüksək keyfiyyətli nəqliyyat, dilə uyğun xidmət və müvafiq infrastrukturun qurulması vacibdir.

Türkiyə isə nəqliyyat-logistika infrastrukturunun modernləşdirilməsi və regional hava limanlarının açılması ilə sərhəd turizmini gücləndirməyə nail olmuşdur. Kars, Van və Gaziantep kimi şəhərlərdə turizm xidmətləri nəqliyyatla effektiv şəkildə koordinasiya olunur (7). Azərbaycan bu modeli Naxçıvan və Qarabağda tətbiq etməklə turizm axınlarını təşviq edə və regionların iqtisadi potensialını artıra bilər.

## Azərbaycanın Turizm Logistikası: Mövcud Durum və Perspektivlər

Azərbaycanın əlverişli coğrafi mövqeyi, təbii-mədəni irsi və müxtəlif iqlim zonaları turizm üçün geniş imkanlar yaradır. Lakin bu potensialın reallaşdırılması üçün dayanıqlı və inteqrasiya olunmuş nəqliyyat-logistika infrastrukturuna ehtiyac var. Xüsusilə işğaldan azad olunmuş ərazilər və Naxçıvan Muxtar Respublikası üçün bu sahədə səmərəli təşkili vacibdir. Bu kontekstdə logistik kəndlər mühüm rol oynaya bilər. Onlar yalnız yük və sərnişin daşımaları üçün deyil, həm də turizm xidmətlərinin koordinasiyası, mədəni tədbirlərin təşkili və marşrutların inteqrasiyası baxımından funksional mərkəzlər ola bilər. Bu kəndlər, müxtəlif nəqliyyat növlərinin uzlaşdırılması və turistlərə xidmətlərin bir məkanda təqdim olunması ilə regional iqtisadiyyata da müsbət təsir göstərə bilər.

Zəngəzur dəhlizi boyunca yaradılacaq logistik mərkəzlər, Qarabağ və digər bölgələrə turist axınını asanlaşdıra bilər. Şuşa kimi mədəni mərkəzlərə Girişin rahatlaşması və turizm xidmətlərinin optimallaşdırılması bu strukturların imkanları daxilindədir. Eyni zamanda, yaşıl enerji və rəqəmsal texnologiyalarla dəstəklənən ekoloji və ekoturizm marşrutları burada inkişaf etdirilə bilər.

Naxçıvan regionu üçün də logistik kəndlər turizm inkişafını sürətləndirə bilər. Nəqliyyat marşrutlarının optimallaşdırılması, sərhəd keçidlərinin səmərəliliyi və xidmət sahələrinin mərkəzləşdirilməsi, bu ərazini daxili və beynəlxalq turistlər üçün daha əlçatan edə bilər. Bu yanaşma həm də bölgədə məşğulluğu artıraraq, sosial-iqtisadi reinteqrasiyanı gücləndirə bilər.

## Turizm logistikası və regional inkişaf: Qarabağ və Zəngəzur regionları

Qarabağ və Zəngəzur regionları, Azərbaycanın strateji əhəmiyyətə malik və zəngin təbiətə, mədəni irsə və tarixi abidələrə sahib əraziləridir. İşğaldan azad olunmuş bu ərazilərdə turizm sektorunun inkişafı, regionların iqtisadi və sosial inkişafına böyük töhfə verə bilər. Logistik kəndlərin yaradılması, nəqliyyat infrastrukturunun inkişafını təmin etməklə yanaşı, turizmin təşviqində də mühüm rol oynayır. Logistik kəndlər, ticarət və nəqliyyat xidmətlərini inteqrasiya edən, həm də turizmə xidmət edən infrastrukturlardır. Bu kəndlər, regionlara olan əlaqələri asanlaşdırmaqla yanaşı, həm də turistlərin hərəkətinin və təcrübələrinin optimallaşdırılmasına kömək edir. Qarabağ və Zəngəzur kimi coğrafi baxımdan əhəmiyyətli regionlarda — xüsusilə Qaraçuxur, Füzuli, Laçın, Zəngilan, Cəbrayıl, Şuşa, Qubadlı, Xocavənd və Kəlbəcər kimi strateji rayonlarda — logistik kəndlərin yaradılması, həm regionların daxili, həm də xarici bazarlarla ticarət və turizm əlaqələrini gücləndirə bilər.

Turizm sektoru yalnız mədəniyyətin deyil, həm də iqtisadi artımın və dayanıqlı inkişafın mühüm sütunlarından biridir. Bu sahədə logistika, yəni turistlərin hərəkəti, xidmətlərə çıxışı və informasiya təminatı – sektorun səmərəliliyini və davamlılığını müəyyən edir. Turizm nəqliyyat, ticarət, xidmət və məşğulluq sahələrinə canlılıq gətirir. Effektiv logistika turist məmnunluğunu artırmaqla yanaşı, resursların düzgün bölgüsünü və xidmət keyfiyyətinin yüksəldilməsini təmin edir (2). Xüsusilə Azərbaycan kimi ölkələrdə turizm iqtisadi diversifikasiyanın əsas vasitəsinə çevrilə bilər. İşğaldan azad olunmuş ərazilərdə və Naxçıvanda bu sahədə atılan addımlar regional reinteqrasiyanı gücləndirə bilər. Burada infrastrukturun qurulması, əlçatanlığın təmin olunması və ekoloji xidmətlər prioritetdir.

Ekoloji dayanıqlıq da önəmlidir. "Yaşıl enerji zonası" konsepsiyası, xüsusilə Laçın və Zəngilan kimi bölgələrdə, ekoturizmin inkişafını dəstəkləyir. Alternativ nəqliyyat vasitələri və enerji effektivliyi, davamlı turizm modelinə töhfə verir.

**Nəticə:** Azərbaycanın turizm-logistika sektoru, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının potensialından tam faydalanmaq üçün strateji yanaşmalar tələb edir. Bu kontekstdə, xarici ölkələrin təcrübələri Azərbaycanın sektorda daha effektiv və dayanıqlı inkişafını təmin etməkdə əhəmiyyətli rol oynaya bilər.

Xarici təcrübələr, Azərbaycanın turizm sektorunun inkişafında həm müasir texnologiyaların tətbiqini, həm də ekoloji və sosial məsuliyyət prinsiplərinə əsaslanan modellərin təşviqini təmin edə bilər. Xüsusilə, Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü və Asiyanın digər ölkələrinin nəqliyyat infrastrukturunun inkişafı, Azərbaycanın Orta Dəhlizdəki rolunu möhkəmləndirə bilər. Avropa və ABŞ-da tətbiq olunan yüksək keyfiyyətli xidmətlər, rəqəmsal platformalar və turizm məhsullarının müxtəlifliyi, Azərbaycanın regional turizmini dünya bazarına təqdim etməsi baxımından əsas təcrübələrdir.

Azərbaycanın turizm-logistika sektorunun inkişafı üçün xarici təcrübələrin tətbiqi, həm də yerli

şəraitə uyğunlaşdırılmış strateji planlamaları tələb edir. Bu, infrastruktur layihələri, xidmət keyfiyyətinin artırılması, rəqəmsal xidmətlərin tətbiqi və ekoturizmin inkişafı kimi sahələri əhatə etməlidir. Dövlətin strategiyası və bu sahəyə dair investisiyaların stimullaşdırılması, Azərbaycanın turizm-logistika sektorunun gələcəyini gücləndirəcək və ölkənin iqtisadi inkişafına töhfə verəcəkdir.

Bu təcrübələr, həmçinin Azərbaycan üçün vacib olan mədəniyyətlərarası turizmin inkişafını və regionlararası əlaqələrin gücləndirilməsini dəstəkləyəcəkdir. Nəticə olaraq, xarici təcrübələrin öyrənilməsi və tətbiqi, Azərbaycanın turizm sektorunun qlobal miqyasda rəqabət qabiliyyətini artıracaq və turizm-logistika sahəsindəki inkişafı sürətləndirəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Xinyan Zhang, Haiyan Song, George Q. Huang "Tourism Supply Chain Management: A New Research Agenda" DOI: 10.1016/j.tourman.2008.12.010 https://www.sciencedirect.com/science/article/abs/pii/S02615177080*

*2. Heybətulla Mabud oğlu Əhmədov, Qəzənfər Nəsrulla oğlu Axundov "TURİZM LOGİSTİKASI VƏ ONUN MƏHSULU OLAN NƏQLİYYAT TƏŞKİLEDİCİSİNİN ARAŞDIRILMASI" https://www.researchgate.net/publication/381389574_TURIZM_LOGISTIKASI_V_ONUN_MHSULU_OLAN_NQLIYYAT_TSKILEDICISININ_ARASDIRILMASI*

*3. J. Guo. Y. Zhang. Do Logistics Development and Tourism Development Contribute to a Low-Carbon Economy? Empirical Evidence from Technological Innovation and Clean Energy Utilization in China (May 2023) https://www.researchgate.net/publication/370683075_Do_Logistics_Development_and_Tourism_Development_Contribute_to_Low-Carbon_Economy_Empirical_Evidence_from_Technological_Innovation_and_Clean_Energy_Utilization_in_China*

*4. R. Chen. The contribution of tourism to China's new development trajectory (October 2024) https://www.researchgate.net/publication/384599600_The_contribution_of_tourism_to_China's_new_development_trajectory*

*5. J. Chocholac. T. Kucera. S. Dana Smart City and Urban Logistics - Research Trends and Challenges: Systematic Literature Review (October 2023) https://www.researchgate.net/publication/374788340_Smart_City_and_Urban_Logistics_-_Research_Trends_and_Challenges_Systematic_Literature_Review*

*6. Joint Declaration of the Republic of Azerbaijan and the People's Republic of China on the establishment of a strategic partnership was adopted in Astana (03 July 2024) https://president.az/en/articles/view/66389*

*7. Dr. V. Karadeniz. Dr. E. Akpınar TÜRKİYE'DE LOJİSTİK KÖY UYGULAMALARI VE YENİ BİR LOJİSTİK KÖY ÖNERİSİ. MARMARA COĞRAFYA DERGİSİ SAYI: 23, OCAK - 2011, S. 49-71 İSTANBUL – ISSN:1303-2429 https://dergipark.org.tr/tr/download/article-file/3253*

*8. N. Ivasyshyna. Development of transport logistics in tourism ( April 2024) https://www.researchgate.net/publication/379626141_Development_of_transport_logistics_in_tourism*

*9. N. and V. Matviienko. STATE AND PROSPECTS OF INTERNATIONAL TOURISM DEVELOPMENT IN JAPAN https://www.researchgate.net/publication/348094644_STATE_AND_PROSPECTS_OF_INTERNATIONAL_TOURISM_DEVELOPMENT_IN_JAPAN*


## XÜLASƏ


Turizm logistikası anlayışı yalnız nəqliyyatın təşkili ilə məhdudlaşmayıb, həm də turizm marşrutlarının planlaşdırılması, xidmətlərin əlaqələndirilməsi, informasiya axınının təmin edilməsi və regionlar üzrə infrastrukturun səmərəli şəkildə yönəldilməsi kimi komponentləri özündə ehtiva edir.

Məqalədə turizm logistikasının təşkilində və idarə olunmasında beynəlxalq təcrübələrin müqayisəli təhlili aparılmış, müxtəlif ölkələrin uğurlu modelləri kontekstində Azərbaycanın mövcud potensialı qiymətləndirilmişdir. Həmçinin, Türkiyənin regionlararası inteqrasiya siyasəti və sərhədyanı turizm infrastrukturunun formalaşdırılması təcrübəsi, eləcə də Yaponiyanın mədəni irsin müasir texnoloji yanaşmalarla vəhdət təşkil edən logistik strukturları ətraflı təhlil edilmişdir. Xüsusi olaraq vurğulanmışdır ki, Çin Xalq Respublikasının geniş turizm bazarı və bu ölkənin beynəlxalq nəqliyyat-logistika zəncirində artan rolu fonunda Azərbaycan üçün yeni regional imkanlar yaranır. Azərbaycanın İpək Yolu üzərində yerləşməsi və Orta Dəhliz strategiyasındakı mövqeyi, Çin bazarına istiqamətlənmiş turizm-logistika məhsullarının hazırlanmasına zəmin yaradır.

Nəticə etibarilə, turizm logistikasında beynəlxalq təcrübələrin öyrənilməsi və yerli xüsusiyyətlərə uyğun şəkildə tətbiqi, xüsusilə işğaldan azad olunmuş ərazilərdə və Naxçıvan Muxtar Respublikasında dayanıqlı turizm sisteminin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Əraziyə uyğunlaşdırılmış nəqliyyat infrastrukturunun qurulması, turizm klasterlərinin yaradılması və xidmətlərin koordinasiyalı təşkili bu sahədə prioritet istiqamətlər kimi müəyyən edilmişdir.

**Açar sözlər:** *turizm; turizm logistikası; beynəlxalq təcrübələr; Qarabağ; Şərqi Zəngəzur.*

**Gunel Isayeva**

**SUMMARY**

The concept of tourism logistics extends beyond the mere organization of transportation; it also encompasses the planning of tourism routes, the coordination of services, the provision of information flows, and the efficient allocation of infrastructure across regions. This article conducts a comparative analysis of international experiences in the organization and management of tourism logistics, assessing Azerbaijan's existing potential within the context of successful models implemented in various countries. The study highlights Turkey's experience in interregional integration policies and the development of cross-border tourism infrastructure, as well as Japan's logistics structures that harmonize cultural heritage with modern technological approaches. Notably, the paper emphasizes that China's large-scale tourism market and its growing role in international transport-logistics chains present emerging opportunities for Azerbaijan. The country's strategic location along the Silk Road and its involvement in the Middle Corridor initiative provide a solid foundation for developing tourism-logistics products tailored to the Chinese market.

Ultimately, the study concludes that the adaptation of international best practices to local conditions is of critical importance for building a sustainable tourism system, especially in the territories liberated from occupation and in the Nakhchivan Autonomous Republic. The establishment of transport infrastructure tailored to the geographic context, the development of tourism clusters, and the coordinated organization of services are identified as key strategic priorities in this field.

**Keywords:** *tourism; tourism logistics; international experiences; Karabakh; Eastern Zangazur.*

**Гюнель Исаева**

**РЕЗЮМЕ**

Понятие туристической логистики выходит за рамки организации только транспортных средств и включает в себя планирование туристических маршрутов, координацию услуг, обеспечение информационного потока и эффективное распределение инфраструктуры по регионам.

В статье проведён сравнительный анализ международного опыта в сфере организации и управления туристической логистикой, а также дана оценка существующего потенциала Азербайджана в контексте успешных моделей, реализованных в различных странах. В частности, рассмотрен опыт Турции в формировании трансрегиональной интеграционной политики и приграничной туристической инфраструктуры; Японии — в интеграции культурного наследия с современными технологическими подходами к логистике. Особо подчёркнуто, что широкий туристический рынок Китайской Народной Республики и её растущая роль в международных транспортно-логистических цепочках открывают новые региональные возможности для Азербайджана. Геостратегическое расположение страны на Великом Шёлковом пути и её участие в реализации концепции Среднего коридора создают основу для разработки турпродуктов, ориентированных на китайский рынок.

В результате подчёркивается, что изучение международного опыта и его адаптация к местным особенностям имеет важное значение для формирования устойчивой туристической системы, особенно в освобождённых от оккупации территориях и в Нахичеванской Автономной Республике. Приоритетными направлениями определены развитие транспортной инфраструктуры с учётом географических условий, создание туристических кластеров и координированная организация услуг.

**Ключевые слова:** *туризм; туристическая логистика; международный опыт; Карабах; Восточный.*